**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT**
**MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**SƏYAVUŞ ELMAN OĞLU MƏHİŞOV**

# MƏDƏNİ TURİZMİN MAARİFÇİLİK MAHİYYƏTİ VƏ ONUN İNKİŞAF AMİLLƏRİ

**6219.01 – Kulturologiya və onun ümumi məsələləri**

**Sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi**
**almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI – 2014**

Dissertasiya Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin
"Kulturologiya" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Nigar Timuçin qızı Əfəndiyeva**
*kulturologiya üzrə elmlər doktoru, professor*

**Rəsmi opponentlər:** **Niyazi Musa oğlu Mehdi**
*fəlsəfə üzrə elmlər doktoru, professor*

**Sabir Abuzər oğlu Əmirxanov**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*

**Aparıcı təşkilat:** Bakı Slavyan Universiteti

Dissertasiyanın müdafiəsi 25 İyun 2014-cü ildə saat 15 :30da Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin nəzdindəki FD.02.091 – Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ-1065 Bakı , İnşaatçılar prospekti 39.Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Elmi Şurasının iclas otağı.

Dissertasiya ilə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat 26 May 2014-cü ildə göndərilmişdir.

**FD.02.091 Dissertasiya Şurasının**
**elmi katibi, pedaqogika üzrə**
**fəlsəfə doktoru, professor** **M.C.Manafova**

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Beynəlxalq və ya regional mahiyyət kəsb etməsindən asılı olmayaraq bu gün turizm həm mədəni, həm də iqtisadi münasibətlərdə çox mühüm rol oynayır. Belə ki, elmi-texniki tərəqqi, elmi-mədəni inteqrasiya, beynəlxalq əmək bölgüsünün dərinləşməsi, elm, mədəniyyət, idman və digər sahələrdə dövlətlərarası əlaqələrin inkişafı zəminində xalqlar öz maddi və mənəvi dəyərlərinin yaradılmasında başqa ölkələrin təcrübəsindən istifadə etməyə can atırlar. Xüsusilə, mədəni turizm dövlətlərarası iqtisadi, mədəni, sosial, elmi-texniki əlaqələrlə yanaşı qarşılıqlı etimadın, sülhün qorunmasında, dövlətlərarasında qarşılıqlı dostluq əlaqələrinin möhkəmlənməsində mühüm amillərdən biri kimi əhəmiyyətli rol oynayır.

XX əsrlə müqayisədə bu gün turizmin funksional mahiyyəti daha çox dəyişmiş və insanlar tərəfindən mənimsənilməyə başlanmışdır. Bu mənada Azərbaycanda turizmin inkişafının hüquqi bazasının əsası 27 iyul 1999-cu ildə qəbul edilmiş "Turizm haqqında" Qanunun qəbulu ilə qoyulmuşdur. Ölkəmizin beynəlxalq əlaqələri isə, əsasən 2001-ci ildə Azərbaycanın Ümumdünya Turizm Təşkilatına tam hüquqlu üzv qəbul edilməsindən sonra qurulmağa başlanmışdır. Bu əlaqələr ikitərəfli və çoxtərəfli olmaqla həm beynəlxalq təşkilatlar, həm də xarici ölkələrlə yaradılıb. İslam Konfransı Təşkilatı, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, GUÖAM, ESKAP, MDB üzv dövlətlərinin turizm şurası və digər beynəlxalq və regional təşkilatlar çərçivəsində turizm sahəsi üzrə ikitərəfli və çoxtərəfli əlaqələr inkişaf etdirilir.

Turizmin ölkə iqtisadiyyatında önəmli yer tutmasına gəldikdə isə bu, "Azərbaycan Respublikasında 2002-2005-ci illərdə turizmin inkişafına dair Dövlət Proqramı"nın qəbulu və nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi ilə baş verdi. Artıq turizm sahəsi idarə olunan, sosial-iqtisadi əhəmiyyət kəsb edən təsərrüfat fəaliyyəti sahəsi statusu almışdır. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin "Azərbaycan Respublikasında 2010-2014-cü illərdə turizmin inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında 2010-cu il 6 aprel tarixli Sərəncamı qarşıdakı illərdə turizm sektorunun ölkə iqtisadiyyatının aparıcı sahələrindən birinə çevrilməsi üçün əhatəli tədbirlər planını özündə əks etdirir[1].

Sosial-mədəni inkişaf baxımından mədəni turizmin Azərbaycanın inkişafına təsirləri artıq özünü göstərməkdədir. Turizm müxtəlif dinlərə,

---

[1] Azərbaycan Respublikasında 2010-2014-cü illərdə turizmin inkişafına dair Dövlət Proqramı. Bakı, 2010. "Azərbaycan Respublikasında 2010-2014-cü illərdə turizmin inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı şəhəri, 6 aprel 2010-cu il, № 838.

mədəniyyət və dillərə mənsub olan, ayrı-ayrı ölkələrdə yaşayan və müxtəlif sosial-iqtisadi səviyyədə olan insanlar arasında fiziki və psixoloji səddin aradan qaldırılmasına kömək edir. Turizmin inkişafı ölkədə mədəniyyətin, incəsənət sahələrinin, hətta milli və adambaşına düşən gəlirin artmasına və asudə vaxtın çoxalmasına səbəb olmuşdur. Ümumiyyətlə, ölkələr üzrə turist axınlarının ildən-ilə artması bu dövlətlərin çoxunda siyasi sabitliyin və iqtisadi inkişafın olmasını göstərir.

Azərbaycan strateji cəhətdən əlverişli ərazidə, şərqdən qərbə, şimaldan cənuba gedən yolların üstündə yerləşdiyindən qədim zamanlardan müxtəlif ölkələrin diqqət mərkəzində olmuş, çoxlu sayda səyyahlar, tacirlər, sənətkarlar buraya gəlmişlər. Azərbaycanın Avropa ölkələri ilə əlaqələrinin qədim tarixə malik olmasına aid çoxlu faktlar mövcuddur. Bütün bu amillər Azərbaycanda mədəni turizmin inkişafının səmərəli perspektivlərindən xəbər verir. Bu mənada mədəni turizmə dair tədqiqatların aparılması, mədəni turizmin maarifçilik mahiyyətinin tədqiqi və turizmin bu növünün inkişaf amillərinin elmi-tənqidi və müqayisəli təhlili zamanın tələbidir və mövzu mədəniyyət siyasəti baxımından da aktuallıq kəsb edir.

**Mövzunun işlənmə dərəcəsi.** Mədəni turizm bir fəaliyyət növü kimi asudə vaxtın səmərəli keçirilməsinə, ekskursiya, səyahət və turist marşrutlarının təşkilinə, həmçinin turistlərin başqa xidmət növlərindən istifadəsinin gücləndirilməsinə təkan verir. Turizmin vacib bir növü kimi öz təsdiqini tapdığı gündən bu sahədə tədqiqatlara başlanılmışdır ki, bunun nəticəsində bu sektorun inkişafı getdikcə daha çox elmi və mədəni təməllərə söykənməkdədir. Lakin turizm dünya ölkələrinin müasir mədəni inkişaf strategiyasında aktual sahə olsa da, son illərə qədər Azərbaycanda bu sahənin və onun ayrı-ayrı aspektlərinin öyrənilməsinə sistemli və kompleks tədqiqat işləri həsr edilməmişdir. Daha çox mədəni turizm aspektləri öyrənilməklə turizmin əlverişli sfera olması nəticələri mövcuddur. Ancaq mədəni turizmin maarifçilik mahiyyəti istiqamətində yazılmış bu dissertasiya işini ilk tədqiqatlardan hesab edə bilərik.

Azərbaycanda turizmin problemlərinə dair tədqiqatlar, əsasən iqtisadi və sosial-mədəni sahələri əhatə etmişdir. Belə ki, A.A.Nadirov, A.K.Ələsgərov, Ə.X.Nuriyev, Ə.Q.Əlirzayev, A.A.Salmanov, R.M.Qasımov, F.P.Rəhmanov, Y.Zeynallı, B.Ə.Bilalov, C.Cəfərov, S.H.Rəhimov, H.B.Soltanova, V.S.Dərgahov, C.Məmmədov, N.Məmmədov, Ş.Hüseynova, N.T.Əfəndiyeva, Ç.Bağırov, İ.H.Hüseynov, O.P.Sultanov, M.A.Süleymanlı, Ç.Q.Bağırov[2] kimi

---

[2] Ağakərimov İ.M., Babazadə S.İ. Ekskursiya və ekskursiya rəhbəri. Bakı, 2006; Bilalov B., Məmmədov C. Azərbaycanda gəlmə turizm və onun inkişaf yolları (monoqrafiya). Bakı: 2004, 180 s.; Bilalov B.Ə. Azərbaycan Respublikasında regionların turizm potensialının qiymətləndirilməsi.

bir çox tədqiqatçılar turizmin bu və ya digər problemlərinə dair əsərlər yazmışlar ki, bu əsərlərdə qismən də olsa mədəni turizmə dair məlumatlar yer almışdır. Turizm-ekskursiya işinin təşkili, turizm-rekreasiya fəaliyyəti kimi problemlər Ə.Məmmədova və S.Rəhimovun tədqiqat işlərində öz əksini tapmışdır. Bir sıra müəlliflər tərəfindən nəşr olunmuş monoqrafiyalar isə turizmin müxtəlif aspektlərinin – beynəlxalq turizm, gəlmə turizm, mehmanxana təsərrüfatı və s. – tədqiqinə həsr olunmuşdur. Mövzunun araşdırılmasında yeri gəldikcə C.A.Məmmədov və B.Ə.Bilalovun "Azərbaycanda gəlmə turizm və onun inkişaf yolları", İ.Hüseynov və N.Əfəndiyevanın "Turizmin əsasları", C.A.Məmmədov, H.B.Soltanova və S.H.Rəhimovun "Beynəlxalq turizmin coğrafiyası", V.Dərgahovun "Rekreasiya – turizm ehtiyatları", B.Ə.Bilalovun "Turizmin tarixi" kimi monoqrafiya və dərsliklərə, habelə Azərbaycan regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafına dövlət proqramına, Azərbaycan Respublikasında 2010-2014-cü illərdə turizmin inkişafına dair dövlət proqramına və digər rəsmi sənədlərə istinad edilmişdir. Eyni zamanda son onillikdə turizmlə bağlı hazırlanmış bir sıra lüğət və dərs vəsaitləri də tədqiqat prosesində mənbə rolu oynamışdır.

Sırf mədəni turizmlə bağlı isə, araşdırdığımız əsərlər sırasında daha çox Türkiyə və Rusiya alimləri üstünlük təşkil edirlər. Türkiyəli tədqiqatçılardan A.Didem Akman, Erkan Aksöz, M.Altıparmak, Gözde Emekli, Bilgehan Gülcan, Mövzul Khalilova, O.Kurdoğlu, Nizami Kozak, Meryem A.Kozak, Metin Kozak, Ç.Oktay, Zafer Oter, N.Osman Ozdogan, Ferahnur Özgören, Murat Özmen, Yusuf Öztaşbaşi, G.Oztunalı-Kayır, Semiha Resuloglu, Hasan Sayılan, Kantarsıoğlu Selçuk, Meydan Selma Uygur, Eda Baykan, Ayşe Burcu Ünal[3] və başqalarının əsərlərində mədəni turizmin ən aktual mövzuları

---

Qloballasma prosesində Qafqaz və Mərkəzi Asiya iqtisadi və beynəlxalq münasibətlər II Beynəlxalq konqresin materialları (II kitab). Bakı: Qafqaz Universiteti, 02-05 may 2007, s. 522-528; Cəfərov Cəfər. Azərbaycanda turizmin problemləri və inkisaf perspektivləri. Qloballaşma prosesində Qafqaz və Mərkəzi Asiya iqtisadi və beynəlxalq münasibətlər II Beynəlxalq konqresin materialları (II kitab). Bakı: Qafqaz Universiteti, 02-05 may 2007, s. 510-513; Dərgahov V.S. Rekreasiya-turizm ehtiyatları. Bakı-MBM, 2008, 216 s.; Əlirzayev Ə.Q. Turizmin iqtisadiyyatı və idarəedilməsi. Dərs vəsaiti. Bakı: Azərbaycan Dövlət İqtisadiyyat Universiteti, 2011, 493 s.; Qasımov R.M. Turizm xidmətlərinin beynəlxalq bazarı. İqtisad elm. dok. ... dis. avtoreferatı. Bakı, ADİU, 2009, 50 s.; Məmmədov C.A., Soltanova H.B., Rəhimov S.H. Beynəlxalq turizmin coğrafiyası (dərs vəsaiti). Bakı: Mütərcim, 2002, 512 s.; Məmmədov C.A. Turizm termin və anlayışlarının izahlı ensiklopedik lüğəti. Bakı, 2007; Nadirov Faiq və Qəhrəmanov Mahir. Kənd yaşıl turizmi. Bakı, 2004; Rəhimov Sabir. Turizm-ekskursiya işinin təşkili və idarə edilməsi. Bakı: Mütərcim, 2004, 340 s.; Soltanova Həbibə. Turizmin əsasları. Bakı, 2007; Süleymanlı M.A. Turizm sosial-mədəni hadisə və kulturoloji proses kimi ("Turizmin əsasları" dərsliyinin V fəsli, s.270-332). Bakı, "Mars-Print" NPF, 2007; Баггиров Ч.Г. Значение памятников архитектуры и искусства в контексте развития современного туризма в Азербайджане. Автореф. дис. … канд. культ. Наук. Баку: АГУКИ, 2007, 28 ст.

[3] Akman A.Didem. Turizm gelismesinin yarattigi dogal və mədəni degisimler: Kas örnegi. T.C. Ankara Üniversitesi Sosial Bilimler Enstitüsü Sosial Çevre Bilimleri Anabilim Dalı, Yüksək Lisans Tezi, Ankara,

araşdırılmışdır. Rusiya alimləri içərisində isə mədəni turizm problemlərini araşdıran alimlərdən V.Y.Voskresenski, A.P.Duroviç, N.İ.Kabuşkin, T.M.Sergeyeva, A.P.Duroviç, İ.V.Zorin, V.A.Kvartalnov, F.İ.Kolber, M.E.Kuleşova, N.İ.Voloşin, R.Prentis, O.V.Raxmaleva, Q.Riçards, A.A.Romanov, R.Q.Saakyans, T.V.Rumyantseva, O.Q.Sevan, A.A.Samoylenko, M.D.Suşinskaya, T.T.Xristov və P.M.Şulqinin[4] adları xüsusilə çəkilməlidir.

---

2007, 172 s.; Aksöz Erkan. Turizm İşletmelerindeki Türk Gecelerinin Türk Kültürünü Tanıtmaya Katkıları. Yüksek Lisans Tezi. T.C. Selçuk Üniversitesi Sosyal Bilimler Enstitüsü. Konya, 2003, 138 s.; Altıparmak M. Turizmin Çeşitlendirilmesi, Sürdürülebilir Turizm ve Planlama. II. Turizm Şurası Bildiriler Kitabı. Ankara, 2002; Emekli Gözde. Coğrafya, Kültür Ve Turizm: Kültürel Turizm. İzmir, Ege Coğrafya Dergisi, 15 (2006), s. 51-59; Göç ve Sosyo-Kültürel Degisim. Yüksek Lisans Tezi (Turhan Eray Demir). T.C. Ankara Üniversitesi Sosyal Bilimler Enstitüsü Antropoloji (Sosyal Antropoloji) Anabilim Dalı, Ankara, 2008; Gülcan Bilgehan. Türkiyede Kültürel Turizmin Ürün Yapısı və Somut Kültür Varlıklarına Dayalı Ürün Farklılaştırma İhtiyacı. Gazi Üniversitesi. İşletme Araşdırmaları Dergisi 2/1 (2010) s.99-120; Khalilova Mövzul. Mədəni Turizm Bakimindan Azerbaycan Şirvan Bölgesinin Arz Potansiyelinin Değerlendirilmesi. T.C. Dokuz Eylül Üniversitesi Sosial Bilimler Enstitüsü Turizm İşletmeciliği Anabilim Dalı, Yüksək lisans tezi, 2008, 118 s.; Kurdoğlu O. Koruma Alanları ve Ekoturizmin Karadeniz Bölgesi Açısından İrdelenmesi. Türkiye Ormancılar Derneği Yayını. Orman ve Av. Ankara, 2001, sayı 4, s, 4; Kültürel Mirasin Korunmasinda Üst Ölçekli Projelerin Rolü. 2010 Avrupa Kültür Başkenti İstanbul ve Fatih Suriçi'ne Etkileri. Yüksek Lisans Tezi (Hazirlayan: Şehir plancisi Yasemin Tosun). T.C. Mimar Sinan Güzel Sanatlar Üniversitesi Fen Bilimleri Enstitüsü, İstanbul, 2008; Nizami Kozak, Meryem A.Kozak, Metin Kozak. Genel turizm. İlkeler – kavramlar. Ankara, Detay yayınsılık, 2001; Oktay Ç. Güncel Turizm Yönelimi İçində Kongre Turizmi ve İstanbul. Ankara, Turizm Bakanlığı Araştırma ve Değerlendirme Dairesi Başkanlığı, 1997; Oter Zafer, Ozdogan N.Osman. Kültür Amaclı Seyahət eden Turistlerde Destinasyon İmici: Selçuk-Efes Örneği. Dokuz Eylül Üniversitesi. Anatolia: Turizm Araşdırmaları Dergisi, Cilt 16, Sayı 2, Güz : 127-138, 2005; Özgören Ferahnur. Bos zaman pazarlamasi ve müzecilikte bir uygulama. Marmara üniversitesi sosyal bilimler enstitüsü işletme anabilim dalı. Yüksek lisans tezi. İstanbul, 2007, 266 s.; Özmen Murat. Turizmin sosial-mədəni təsirləri: Akçakoca örnegi. T.C. Abant İzzet Baysal Üniversitesi Sosial Bilimler Enstitüsü, 2007, 86 s.; Öztaşbaşi Yusuf. Azerbaycan'in Turizm Coğrafyası. Marmara Üniversitesi. Türkiyat Araştirmalari Enstitüsü. Türk Dünyasi Coğrafyasi Anabilim Dali. Yüksek Lisans Tezi. İstanbul, 2008, 144 s.; Öztunalı-Kayır G. Batı Akdeniz Kıyıları Taşıma Kapasitesi ve Ekoturizm. Türkiye Kıyıları 98, Türkiye'nin Kıyı ve Deniz Alanları II. Ulusal Konferans Bildirileri Kitabı, İstanbul, 1998; Resuloglu Semiha. Koruma Olgusu ve Kültür ve Tabiat Varliklarini Koruma Kurullarinin Yaklaşimlari. Dokuz Eylül Üniversitesi Fen Bilimleri Enstitüsü, İzmir, 2005; Sayılan Hasan. Mus İlinde Kültür Turizmi Potansiyelənın Cografi Yönden Degerlendirilmesi. Yüksək Lisans Tezi. Ankara – 2007 Ankara Üniversitesi Sosial Bilimler Enstitüsü, Ankara, 2007, 262 s.; Selçuk Kantarsıoğlu. Türkiye Cumhuriyeti hükümet proqramlarında kültür. T.S.Kültür Bakanlığı, Ankara, 1998; Uygur Meydan Selma, Eda Baykan. Kültür Turizmi ve Turizmin kültürel Varlıklar Üzerindeki Etkileri. Ticaret və Turizm Egitim Fakültesi Dergisi Yıl: 2007 Sayı: 2, s.30-50; Ünal Ayşe Burcu. Türkiyənin Avropa Birliyi Turizm Politikasina Uyumu. Yüksək Lisans Tezi, T.C. Bahçeşehir Üniversitesi, İstanbul, 2007, 74 s.

[4] Воскресенский В.Ю. Международный туризм: учеб. Пособие для студентов вузов, обучающихся по специальностям. М., ЮНИТИ-ДАНА, 2006, 255 с.; Дурович А.П., Кабушкин Н.И., Сергеева Т.М. и др. Организация туризма. Минск: Новое Знание, 2003. 496 стр.; Дурович А.П. Реклама в туризме. Учевное посовие. М., Новое знание, 2005; Зорин И.В. Образование и карьера в туризме. Учевное посовие. М., Советский спорт, 2000; Зорин И.В., Квартальнов В.А. Энциклопедия туризма. Справочное издание. М., Финансы и статистика, 2001; Квартальнов В.А. Иностранный туризм. Учевное посовие. М., Финансы и статистика, 1999; Квартальнов В.А. Туризм. Москва. Финансы и кредит. 2002, 173 с.; Квартальнов В.А. Теория и практика туризма. Учебник. М., Финансы и статистика, 2003; Колбер Ф. И и др. Маркетинг культуры и искусства. – СПб.: Издатель Васин А.И., 2004; Кулешова М.Е. Управление культурными ландшафтами и иными объ-ектами историко-культурного наследия. – М., 2002; Прентис Р. Опыт становления и развития культурного туризма: Учеб-ное пособие. – СПб.: Изд-

Ümumilikdə, turizmin müxtəlif problemlərinə dair çoxsaylı ədəbiyyatın mövcud olmasına baxmayaraq, azərbaycanlı müəlliflər tərəfindən yazılmış tədqiqat əsərlərində mədəni turizmin maarifçilik mahiyyəti ilə bağlı məlumatlar olduqca azdır və turizm münasibətlərinin mədəni aspektdən araşdırılması və öyrənilməsinə ilk olaraq məhz bu dissertasiya işində cəhd göstərilmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Hazırda bir sıra ölkələrin apardığı yeni siyasət nəticəsində turizmin inkişafı valyuta axını və yeni qoyulan investisiyalarla yanaşı regionda sosial-mədəni dəyərlərin inkişafına da zəmin yaradır. Bu mənada dünya turizminin inkişafında mədəniyyət faktorunun yeri və rolu getdikcə artmaqda və mədəni turizmin bu sektordakı payı günü-gündən artmaqdadır. Təbii ki, belə bir artım göstəriciləri insan kapitalı, mədəni inkişaf, tolerantlıq, qarşılıqlı etimad və s. kimi amillərin möhkəmlənməsinə şərait yaradır ki, bu da bəşəriyyətin gələcək rifahının təminatı baxımından mühüm əhəmiyyət kəsb edir. Lakin özü ilə müsbət dəyişikliklər gətirən mədəni turizm sənayesi, eyni zamanda insan, cəmiyyət və təbiət münasibətləri baxımından mənfi təsirlər də yaratmaqdadır. Bir tərəfdən mədəni turizmi digər turizm növlərindən fərqləndirən cəhətlərin qabardılması yolu ilə bəşəri dəyərlər qorunur və təbliğ edilir. Bu mənada mədəniyyət faktorunun ön plana çıxarıldığı bu sektorun inkişafı bəşəriyyətin gələcəyinə işıq salır. Digər tərəfdən isə mədəni turizm fəaliyyətlərində mədəniyyət amilindən çox, iqtisadi mənfəətlərin ön plana çıxdığı təqdirdə və turizm sənayesinin idarəedicilərі və iştirakçılarının (turistlər, yerli əhali, iş adamları və s.) təbiətə, ətraf mühitə, bir-biri ilə münasibətlərə, əxlaq və davranış normalarına xoşməramlı və qayğılı münasibət bəsləməkləri halda bir sıra mənfi təzahürlərin meydana çıxması qaçılmaz olur.

Mədəni turizmlə bağlı tədqiqat aparan alimlərin diqqətini də ilk növbədə məhz bu problemlər çəkir. Biz də öz araşdırmamızda diqqəti bu məsələlərin öyrənilməsinə yönəltmişik və bu mənada dissertsiyanın əsas məqsəd və vəzifələri aşağıdakılardan ibarətdir:

---

во СПбГУЭФ, 2001; Рахмалева О.В. Культурный туризм как фактор социально – экономического развития региона. Автореферат диссертации на соискание ученой степени кандидата экономических наук. Санкт-Петербург, Санкт-Петербургский государственный университет экономики и финансов, 2000, 22 с.; Ричардс Г. Культурный туризм в Европе // Актуальные вопросы теории и практики туризма: Труды Академии туризма. Вып. 2. – СПб., 1997; Романов А.А., Саакянц Р.Г. ГеогРафия туризма. Учебное пособие. М.: Советский спорт, 2002, 464 с.; Румянцева Т.В. Перспективы развития дестинаций культурного туризма. – СПб.: Изд-во СПбГУЭФ, 2003; Севан О.Г. Культурный и сельский туризм сегодня и завтра / «Обсерватория культуры», Москва, 2005, № 4, с.28-35; Севан О.Г. Исторический город и туризм // Прогнозное социальное проектирование и город, Москва, 1995, с.403-415; Самойленко А. А. География туризма : учеб. Пособие. Ростов н/Д: "Феникс", 2006, 368 с.; Сущинская М.Д. Культурный туризм: учебное пособие. Санкт-Петербургск, СПбГУЭФ, 2010, 128 с.; Христов Т.Т. Религиозный туризм. - М.: Издательский центр "Академия", 2005, 486 с.; Шульгин П.М. Историко-культурное наследие как особый ресурс ре-гиона и фактор его социально-экономического развития // Мир России. 07.06.2004. - http://www. public/ ru/.

– mədəni turizm anlayışının məzmun və mahiyyətini araşdırmaq, onun nəzəri əsaslarını dərindən tədqiq etmək;

– ənənəvi turizmlə yeni, postmodernist turizmin fərqlərini müəyyənləşdirmək, mədəni turizmin müasir dünyada oynadığı rolu təhlil etmək;

– mədəni turizm probleminin tədqiqində sistemli və təşkilati yanaşmaların əhəmiyyətini göstərmək;

– turizmin ictimai, mədəni, sosial və psixoloji məqamlarını araşdırmaqla turizmə müsbət təsir edən faktorları qabartmaqla, mənfi təsirlərin azaldılması yollarını elmi baxımdan əsaslandırmaq;

– mədəni turizm əlaqələrinin inkişafında sosial-mədəni amillərin rolunun sosioloji təhlilini vermək;

– Davamlı mədəni turizmin əsas prinsiplərinin və bu sahədəki əsas təmayüllərin təcrübəsini öyrənmək;

– Azərbaycanın mədəni turizm məkanlarını, bu sahədə mövcud qanun və qaydaları müəyyənləşdirmək və təhlil etməklə ölkədə mədəni turizm sənayesinin ümumi mənzərəsini təhlil etmək;

– Azərbaycanda mədəni turizmin müxtəlif növlərinin inkişaf etdirilməsi yollarını müəyyənləşdirmək və Azərbaycanla dünya ölkələri arasında mədəni turizm əlaqələrinin inkişafına həm təkan verən, həm də mane olan amilləri öyrənmək.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqat işinin obyektini mədəni turizm, turizmin bu növünün maarifçilik mahiyyəti və onun inkişaf amilləri təşkil edir. Habelə, mədəni turizmin kulturoloji mahiyyəti, turizm sahəsində inkişaf etmiş dünya ölkələrində davamlı mədəni turizm dinamikasının öyrənilməsi və Azərbaycanın beynəlxalq turizm sənayesindəki mövqeyidir. Tədqiqat işinin predmetini isə mədni turizmin inkişaf potensialı, mövcud mədəni turizm mərkəzləri və mədəni turizmin ölkədaxili inkişaf növləri əhatə edir.

**Tədqiqat işinin nəzəri-metodoloji əsasları.** Tədqiqat işinin nəzəri əsasları postmodernizm dövrünün metodoloji ənənələrinə söykənir. Dissertasiyanın metodoloji əsasını kulturoloqların, sosioloqların, iqtisadçıların, filosofların, elmin digər sahələrində çalışan alimlərin tədqiqatlarından nümunələr verməklə, onların fikir, rəy və yanaşmalarına müəllifin şəxsi münasibəti təşkil edir. Müasir Azərbaycan, Türkiyə, Rusiya və Qərb ölkələri alimlərinin işin mövzusu ilə əlaqədar tədqiqatları da işin metodologiyası və metodikasında mühüm rol oynamışdır. Dissertasiyada məntiqilik, tarixilik, müqayisə, sistemli yanaşma metodlarına riayət olunmuş, habelə statistik, sənədlərin təhlili və ekspert sorğu metodlarından istifadə olunmuşdur. Tədqiqatın aparıcı prinsipləri kimi sistemlilik, hadisələrin qarşılıqlı əlaqəsi, inkişafda ziddiyyətlərin axtarılması və inkişafda varislik prinsipləri çıxış edir.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın elmi yeniliyi mədəni turizmin inkişaf problemlərinin Azərbaycan kulturoloji fikrində ilk dəfə olaraq sistemli formada öyrənilməsindən ibarətdir. Son illərdə turizmə dair bir sıra elmi-tədqiqat əsərlərinin yazılmasına baxmayaraq, mədəni turizmlə bağlı dünya təcrübəsinin öyrənilməsi, bu sahədəki elmi qənaətlərin ümumiləşdirilməsi istiqamətində əhatəli bir araşdırma aparılmamışdır. Tədqiq olunan problem məhz bu dissertasiya işində ayrıca tədqiqat obyektinə çevrilmiş və mövzu ilə bağlılığı olan müxtəlif araşdırmaların nəticələrinə ilk dəfə olaraq burada hərtərəfli elmi-tənqidi münasibət bildirilmişdir. Dissertasiya işinin elmi yeniliyi də problemə belə bir sistemli yanaşma ilə müəyyən olunur və əsasən aşağıdakı müddəalarda öz əksini tapır:

– Dünyada sülh və əminamanlığın yaradılması, bəşəriyyətin gələcək rifahı naminə turizm sənayesində mədəniyyət faktorunun prioritet təşkil etməsi ehtiyacının elmi şəkildə əsaslandırılması. Mədəniyyət və turizm fenomenlərinin qarşılıqlı əlaqə və təsirlənmələrinin elmi izahını vermək;

– Dünya turizm sektorunda payı getdikcə artmaqda olan mədəni turizmlə bağlı anlayışların mahiyyətini açmaq və çərçivəsini müəyyənləşdirmək. Mədəniyyət məqsədli turizmin maarifçilik funksiyasınının kulturoloji izahını vermək;

– İctimai, siyasi, sosial və mədəni baxımdan davamlı mədəni turizmin perspektivlərini elmi əsaslarla izah etmək. Davamlı mədəni turizmin təməl prinsiplərinə əməl edilməsinin iqtisadi, inzibati və etik aspektlərinə diqqət yetirmək. Bu sektorun inkişafındakı yeni təmayülləri müəyyənləşdirməklə ətraf mühitin, təbii irsin, tarixi-mədəni sərvətlərin mühafizəsi problemlərinin həlli yollarına dair qənaətləri ümumiləşdirmək;

– Azərbaycanın turizm sektorunda beynəlxalq təcrübədən bəhrələnmənin səviyyəsini elmi arqumentlərlə izah etmək. Mədəni turizmin inkişaf amillərini nəzərə almaqla dünya təcrübəsinin yerli turizm fəaliyyətlərinə tətbiqi yollarını araşdırmaq;

– Mədəni turizmin inkişafı üçün diqqəti turizm qurumlarının mədəniyyət müəssisələri ilə əməkdaşlığına yönəltmək. Mədəniyyət və turizm müəssisələri arasındakı əməkdaşlığın səmərəli olması üçün mövcud imkanların araşdırılması, qarşıya çıxacaq problemlərin təhlili yolu ilə Azərbaycanın mədəni turizmin potensialına və perspektivlərinə elmi-tənqidi qiymət vermək.

**Tədqiqat işinin elmi-praktik əhəmiyyəti.** Dissertasiya işində əldə olunan nəticə və müddəalar müasir dünyada, o cümlədən, mədəni turizm sahəsində dünyada baş verən dəyişikliklərin nəzəri-empirik cəhətdən dərk olunmasına yönəlmişdir. Tədqiqat işinin nəticələrindən gələcək elmi işlərdə, ali məktəblərdə mədəni turizm sahəsində elmi məruzələrin və mühazirələrinin hazırlanmasında, tədris proqramlarının tərtibində, metodik vəsaitlərin işlənilməsində istifadə etmək olar. Dissertasiya materiallarından turizm,

kulturologiya, sosiologiya, iqtisadiyyat və s. fənlərin tədrisi prosesində faydalanmaq olar. Habelə, dissertasiya işi humanitar elmlər sahəsində biliklərin dərinləşdirilməsi, turizmə, dövlət mədəniyyət siyasətinə və s. dair qanunvericilik aktlarının hazırlanması, QHT-lərin fəaliyyətində və KİV-də məlumatlandırma üçün bir mənbə rolunu oynaya bilər. Tədqiqat işi Azərbaycan Respublikasında mədəni turizmin inkişaf problemlərinə və perspektivlərinə aydınlıq gətirmək baxımından elmi mahiyyət kəsb edir.

**Dissertasiya işinin aprobasiyası.** Dissertasiya Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin "Kulturologiya" kafedrasında yerinə yetirilmişdir. Dissertasiyanın əsas müddəaları və nəticələri müəllifin nəşr olunmuş məqalə və tezislərində, elmi seminar və konfranslarda etdiyi məruzələrdə öz əksini tapmışdır.

**Dissertasiyanın strukturu.** Dissertasiya dörd fəsil, səkkiz yarımfəsil nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Mədəniyyət və turizm sahələrində qarşılıqlı əlaqənin kulturoloji mahiyyəti"** başlıqlı I fəslinin ilk yarımfəslində mədəni turizmin mahiyyətinə aydınlıq gətirilir və bu sahədəki qənaətlər ümumiləşdirilir. **"Mədəni turizmlə bağlı terminoloji anlayışların kulturoloji izahı"** adlı bu yarımfəsildə mədəni turizm təbii və tarixi mədəniyyət sərvətlərini, mədəni fəaliyyətləri, aktual sənət əsərlərini, bəzi sosial-iqtisadi faktları turistik bir məhsul halında səyahətçilərin xidmətinə təqdim edən turizm anlayışı kimi təqdim edilir. Göstərilir ki, mədəni turist təcrübəli səyyahdır, təhsili yüksəkdir, yüksək gəlir qrupuna aiddir, orta və daha yuxarı yaş qrupuna daxildir, qənaətçildir, tətil və səyahət məsələsində dost-tanışdan məlumat alır, kəşf etməyi sevən insandır...

Ümumiləşdirmə aparılaraq belə qənaətə gəlinir ki, mədəni turizm – maraq, dincəlmə, əyləncə, sağlamlıq, idman məqsədləri ilə yanaşı, şəxsiyyətin zənginləşdirilməsi, yeni məlumatların qazanılması məqsədi ilə edilən səyahətlərdir. Başqa sözlə, mədəni turizm – turistlərin qədim sənət əsərlərini, tarixi yerləri, muzeyləri, qədim sivilizasiyalara aid müxtəlif qalıntıları, digər cəmiyyətlərin yaşayışlarını öyrənmək istəyi ilə həyata keçirilən turizm fəaliyyətləridir. Digər bir tərifə görə isə mədəni turizm – təhsil, sənət, mədəniyyət və festival turlarını, abidələri, qədim yaşayış məskənlərini və təbii gözəllikləri, ziyarətgahları, xüsusilə fəaliyyət sahəsi mədəni fəallıq olan səyahətləri əhatə edir.

Eyni zamanda, mədəni turizm mədəni instinktlərlə səyahət edən turistlərin daxil olduğu turizmdir. Mədəni irs və sərvətləri ziyarət etmək vasitəsilə,

səyahətçinin duygu və düşüncələrinə təsir edən, üfüq genişləndirən yerdəyişmələr mədəni turizmi təşkil edir. Mədəni əşyanın keçmişə aid olması (zaman uzaqlığı) və ya yaşanılan yerdən uzaq bir coğrafi məkanda olması (məkan uzaqlığı) cəlbediciliyə rəvac verir. Bəzilərini isə mədəni turizmə elmi və zehni bir uzaqlıq (yüksək sənət və elm əsərlərini anlama cəhdi) cəlb edir. Mədəni turizm, tarixi əsərləri ziyarət etmək səbəbilə miras turizmini, aktual sənətkarlıq fəaliyyətlərindən yararlanması səbəbilə isə sənət turizmini özündə ehtiva etməkdə və beləliklə, yaradıcı turizmə (turistin öz təcrübəsinin yaradıcısı (və istehsalçısı) olduğu yeni bir yanaşma) doğru genişlənməkdədir.

Mədəni turizm "mədəni qaynaqlar üzərinə qurulmus bir turizm növü olub, əsas motivasiyasını yeni yerlər tanımaq, yeni seylər öyrənmək və ən önəmlisi də, mədəni fəaliyyətlərə aktiv olaraq qatılmaq surətilə, yeni təcrübələr qazanmaq ehtiyacı" kimi də tərif verilə bilər. Bu mənada mədəni turizmin əsas xüsusiyyətləri qeyd edilməlidir: Turist təcrübələrinə əlavə dəyər qazandırır və bununla da keyfiyyətli turistlə asanlıqla əlaqə qurula bilir; Çağdaş turizm istehlak qəliblərinə uyğunlaşır. Daim yüksək təminata imkan yaradan yeni məhsulları və yeni təcrübələri araşdırır; Günəş-dəniz-qum qaynaqlarından başqa digər yeni destinasyonlar üçün fərqli yanaşmalara rəvac verir; Her şeydən əvvəl insanlar turizm sayəsində fərqli mədəniyyətləri görmə imkanı əldə edirlər. Bu səbəbdən də mədəni turizm həyat tərzləri və zövqləri bir-birindən fərqli olan insanlar arasında bir mədəniyyət mübadiləsi üçün şərait yaradır; İnsanlar səyahət etməklə dünyanın müxtəlif ölkələrindəki insanların həyatlarını, mədəniyyətlərini, sənətlərini yerində görmək və tanış olmaqla mədəniyyət səviyyələrini artırırlar; Mədəni turizmə çıxan turistlər öz səyahətləri müddətində qarşılaşdıqları müxtəlif mədəniyyət və sənət əsərlərini sərbəst surətdə dəyərləndirilər, aralarındakı ayrılıqları görürlər. Ayrılıqları, bir həyat fərqi, zənginlik və dünya gözəlliyi olaraq qəbul edirlər. Daha xoş niyyətli, tolerant və hörmətcil olmağı öyrənirlər. Beləcə özlərini, ölkə və millətlərini olduğu qədər digər ölkə və millətləri sevməyi də öyrənirlər. Başqaları üçün fədakarlıq hisslərini inkişaf etdirirlər; Bütün bunlarla yanaşı, mədəniyyət və sənət əsərləri turizmin ən önəmli qaynaqlarıdır. Turistlərin böyük əksəriyyəti ölkələrə, o cümlədən Azərbaycana bu sənət və mədəniyyət əsərlərini görmək üçün gəlirlər.

Başqa yerləri və toplumları görmə marağı, mədəni turizm fəaliyyətlərini digər turizm fəaliyyətlərindən ayıran ən mühüm təməl xüsusiyyətdir və bir seyi anlamaq və ya öyrənmək üçün hiss edilən bir istək kimi tərif verilən "maraq" eyni zamanda mədəni turizmin də təməlini təşkil edir.

"Mədəni turizm" anlayışını tərif etmək əlbəttə ki, çox asan məsələ deyil. Mədəniyyət kəlməsi çox geniş bir sahəni əhatə edir və bu səbəbdən də insandan insana dəyişən təriflərlə izah olunmaya gətirib çıxarır. Sözün ən geniş

mənası ilə düşünsək, hər cür insan fəaliyyətini bu başlıq altında ifadə etmək mümkündür. Mədəniyyətə keçmişə aid dəyişməz, durgun bir "məhsullar bütünü" yerinə daimi inkişafda olan bir proses kimi baxsaq, mədəni turizmi də belə bir geniş və əhatəli fenimen kimi qəbul etməliyik.

Bu mənada "mədəni turizm nədir?" sualına cavab vermək də ilk baxışda çətindir. Çünki bu anda həm turizm və səyahət sektorunda, həm də bu sahəyə aid araşdırmalarda müxtəlif təriflər vardır. Fərqli kontekstlərdən baxıldığında, məsələn səyahət agentlikləri bir cür, çatdığı məqsədlar baxımından mədəni turizm səyahətçisi başqa cür təriflar verə bilər. Amma bununla belə, ilk növbədə onu deyə bilərik ki, mədəniyyət sadəcə muzeyləri, qalereyaları, teatr tamaşalarını, kinofilmləri, musiqili səhnə əsərlərini, qeyri-maddi mədəni irsi deyil, həm də maddi irsi, daha doğrusu həyat tərzini də əhatə edir. Digər tərəfdən, mədəniyyət yalnız şəhərləri deyil, kəndləri, insan əli-ayağı dəymiş dağı, aranı, çölü, səhranı da əhatə etməkdədir.

Turizmin və ya mədəniyyət səyahətlərinin təcrübəsindən çıxış edərək turizmin bu növünə belə bir tərif verə bilərik: Mədəni turizm – təbii və tarixi mədəniyyət sərvətlərini, mədəni fəaliyyətləri və aktual sənət əsərlərini, mədəniyyət sənayelərinin nəticələrini, bəzi sosial-iqtisadi faktları turistik bir məhsul halında səyahətçilərin xidmətinə təqdim edən bir turizm anlayışıdır. Yalnız tarixi olanı deyil, aktual olanı da əhatə edən bir termindir.

**I fəslin ikinci yarımfəsli "Mədəniyyət məqsədli turizmin maarifçilik aspektləri" adlanır. Burada göstərlir ki, b**ir sıra mütəxəssislər mədəni məqsədli səyahət edən turistləri məqsədləri baxımından beş qrupa ayırırlar: məqsədli gəzənlər, ətraf mühiti görməklə kifayətlənənlər, kəşf edənlər, mədəniyyətə marağı zəif olanlar, təsadüfi ziyarətçilər. Bunların içərisində məqsədyönlü olanlar və yalnız mövzularına hakim olanlar az saydadır. Kəşf edənlər, qatıldıqları bir mədəniyyət gəzintisi əsnasında müəyyən bir mədəni mövzuya olan marağını kəşf edib məqsədli ziyarətçi olmağa yönəlirlər. Ətraf mühiti və təbiəti görməklə kifayətlənənlər mədəniyyətə maraqlıdırlar, ancaq məlumatları lazımi qədər olmadığından qısa ziyarətlərlə kifayətlənirlər. Mədəniyyətə marağı zəif olanlar bu cür gəzintilərə nadir hallarda qatılırlar və çox maraqlanmadan gəzintinin qurtarmasını səbirsizliklə gözləyirlər. Təsadüfi ziyarətçilər heç bir plan qurmadan bu cür gəzintilərə qatılır və mövzuya maraqları olmadığından ziyarəti həmən bitirməyə çalışırlar. Buna oxşar digər bir qruplaşmada mütəxəssislər üç kateqoriya müəyyənləşdirmişlər: yüksək motivasiyalı sahə mütəxəssisləri, motivasiyaları yüksək olsa da maraqları olduqca çox mövzulara dağılmış olanlar, fürsət düşüncə marağını çəkən bir mövzuda seçim edərək turizmə qatılanlar. Sonuncu qrupa, xüsusilə kütləvi turistləri qəbul edən haylı-küylü turizm mərkəzlərində çox rast gəlinir.

Müasir dövrdə turizmin estetik baxımdan məna və əhəmiyyətinin izahı üçün müxtəlif fikirlər mövcuddur. Məsələn, S.Virinq və B.Virinqin fikrincə, “turizm Qərb insanı üçün yorucu və təkrarlanan yaşayış tərzindən müvəqqəti uzaqlaşmağa şərait yaradır”. B.Teylor və S.Kuenə görə isə, “texnologiyanın rolunun sürətlə artdığı bir vəziyyətdə və texnologiyanın insanın özünü dərk etməsi imkanlarını məhdudlaşdırdığı bir şəraitdə turizm insanın özünü dərki üçün şərait yaradır”. Deməli, turizm insan tələbatı və ehtiyaclarının ödənilməsi üçün bir vasitədir: insanlar müəyyən bir məkan haqda xəyallarını və təsəvvürlərini real olaraq təcrübə etmək məqsədi ilə səyahət edirlər. Mədəni turizm dedikdə isə turizm sahəsinin mədəni cəlbediliciklәri və cazibələri nəzərdə tutulur. Mədəni cazibələr müxtəlif sahələrdən ibarətdir və muzeylər, sərgilər, əl işləri və s. bu kimi cazibələri ehtiva edir. İnkişaf etmiş ölkələrdə mədəni cazibələr sırasına incəsənət muzeyləri, teatr salonları, milli yaxud simfonik orkestrlər, müxtəlif incəsənət və musiqi fəaliyyətləri aiddir. Turist məşhur muzeyləri görmək üçün müəyyən bir məkana, milli, yaxud simfonik orkestri dinləmək üçün müəyyən bir konsert salonuna gedir. İnkişaf etməkdə olan ölkələrdə bu tip məkanlar yerinə ümumən dini mərasim və məkanlar, kustar sənaye (əl işləri) və mədəni fəaliyyətlərlə əlaqədar məkanlara rast gəlinir.

Mədəni turizm daha çox təcrübə və faktiki müşahidədən asılıdır. Mədəni turizmə dair verilən əvvəlki izah və təriflərdə daha çox incəsənətə əhəmiyyət verilirdi və müxtəlif teatrlar, muzeylər və tarixi abidələrlə keçirilən tanışlıq diqqət mərkəzində saxlanırdı. 1991-ci ildən etibarən Avropanın qısa şəkildə “ATLAS” adlanan tanınmış “Asudə vaxt və turizm üzrə tədqiqat mərkəzi” mədəni turizmlə əlaqədar bir çox tədqiqatlar həyata keçirmişdir. Bu mərkəz mədəni turizmə iki cür – texniki və konseptual yanaşma nümayiş etdirir və ona "insanların daimi və adi yaşayış məkanından xaricdə yerləşən muzeyləri, mədəni abidələri, tamaşaları, festivalları və incəsənət sərgilərini görmək məqsədi ilə öz yaşayış yerini tərk etməsi" kimi tərif verir.

Konseptual tərif: İnsanların daimi və adi yaşadığı məkandan kənarda olan mədəniyyət təzahürləri haqda yeni informasiya və təcrübələr əldə etmək məqsədi ilə öz yaşadıqları məkanı tərk etməsi mədəni turizm adlanır. Bu tərif olduqca geniş olsa da, burada daha çox turistlərin mədəni turizm çərçivəsində mədəniyyətin empirik və əməli cəhətləri ilə maraqlanması diqqət mərkəzində saxlanılıb. Əlbəttə, “ATLAS” qrupunun həyata keçirdiyi tədqiqat əsasən Avropa ölkələrinə şamil olunur və diqqət mərkəzində daha çox turistlərin maraqlandığı yerli icmalar durur. Bununla belə onların verdiyi tərif bizə “mədəniyyət həyat tərzidir” ideyasını xatırladır. Qeyd etmək lazımdır ki, əslində yerli, etnik və məhəlli icmalarla maraqlandığımız zaman mədəni turizm obyekti kimi daha çox əhalinin həyat tərzi diqqət mərkəzində saxlanılır.

Bir sözlə, mədəni turizm turizmin elə bir növüdür ki, burada turist bir regionun yaxud məkanın bütün mədəni xüsusiyyətləri ilə (maddi və qeyri-maddi) maraqlanır və mədəni cazibələri görmək onun əsas məqsədini təşkil edir. Turizmin bu növündə turist əsasən adət-ənənə, rituallar, xalq tamaşaları, xalq musiqisi, yerli dil, mərasimlər, mətbəx və oyunlarla tanış olmaq, onları yaxından görmək istəyir, mədəni abidələri, tarixi binalar və məkanları gəzir.

Mədəni məqsədli turizmin maarifçilik aspektlərindən bəhs edərkən qeyd edilməlidir ki, insanlar yasadıqları cəmiyyətin mədəniyyətinin təsiri altındadırlar. Səyahətlər zamanı isə fərqli mədəniyyətləri tanımaq imkanı əldə edirlər. Beləcə, mədəniyyətlərarası əlaqə və qarşılıqlı təsirlənmə meydana gəlir. Həm də insanların turizmə qatılmasına təsir göstərən amilləridən biri də mədəniyyətdir. Bu cür turizm olduqca qədim tarixlərə dayanan bir çesiddir. Bir qisim mədəni ünsürlər və həvəsləndirici amillər insanları səyahəte sövq edir. Mədəni turizm tələbi də mühüm amillərdəndir. Çünki, müasir dövrdə kütləvi informasiya vasitələrindəki sürətli inkişafin insanlar üzərində oyandırdığı maraq, mədəni səviyyənin getdikcə yüksəlməsi, nəqliyyat vasitələrindəki sürət, güvən və konfort artımı kimi amillər beynəlxalq səyahətlərin mədəni həcmini artıran faktorlar olmaqdadır.

Dissertasiyanın II fəsli **"Turizmin ictimai-mədəni və sosial-psixoloji təsirləri"** adlanır. **"Turizmin müsbət ictimai və mədəni təsirləri"** başlıqlı ilk yarımfəsildə turizm, turist qəbul edən ölkə mədəniyyətinə təsirləri baxımından iki fərqli cəhətdən dəyərləndirilir. Bunlardan birincisi turizmin müsbət təsirləri, digəri isə mənfi təsirləridir. Turizmin ictimai-mədəni və sosial-psixoloji təsirləri bəhs mövzusu olduğu təqdirdə, heç şübhəsiz, göz önünə ilk növbədə insan faktoru gəlir.

Mədəni turizm problemlərinə insan amili kontekstində yanaşıldıqda bəlli olur ki, turizmin, xüsusilə, inkişaf etməkdə olan ölkələrin fərdləri üzərində bir təsiri olduğu ümumi qəbul edilən bir məsələdir. İki ölkə mədəniyyətinin qarşılaşdığı bir mühitdə, inkişaf etmiş ölkələrin mədəni dəyərləri, az inkişaf etmiş ölkələrdəki turizm obyektlərini təsir altına almaqdadır. Dünya turizminin inkişaf etmiş ölkələr tərəfindən diktə edildiyi müasir dövrdə, inkişaf etməkdə olan ölkələrin bu təsir altında qalması qaçılmazdır. Turist və ya ziyarətçilərin bir neçə ölkəni təmsil etdikləri halda isə, şübhəsiz ki, bu təsir daha da güclü olacaqdır. Bu istiqamətdə aparılmış əvvəlki araşdırmaların nəticələrinə istinadən, turistlə turisti qəbul edən əhalinin bir-biriləri ilə əlaqə və qarşılıqlı təsirə girmələri nəticəsində ortaya çıxa biləcək müsbət ictimai təsirlər bu şəkildə sıralana bilər: 1) Turizm, fərqli cəmiyyətlərdən gələn fərdlərin bir-biriləri ilə məlumat alış-verişində olmaları və mədəni strukturlarını daha yaxından tanımaları, yaranan dostluq və yoldaşlıq nəticəsində fərdlər arasındakı ziddiyyətləri aradan qaldıraraq ictimai barış və xoş məramı artıra bilər. Turizm,

müasirləşmə üçün əhəmiyyətli bir faktor ola bilər. Dünyanın müxtəlif ölkələrindən gələn fərdləri görmək, onlarla qaynayıb-qarışmaq, mədəniyyət və düşüncə mübadiləsində olmaq, nəticədə yer üzündə başqa insanların da yaşadığının fərqinə varılması baxımından az inkişaf etmiş ölkə insanları üçün əhəmiyyətli bir məsələdir; 2) İstifadəsiz bölgələrin şəhərləşməsini sürətləndirməsi də turizmin başqa bir müsbət təsiri sayıla bilər. Turizm sayəsində, şəhərdənkənar boş və geniş sahələrdə yaradılan yeni iş yerlərinə, müasir sənaye mərkəzlərinin mədəni dəyərlərinin mənimsənilməsi yolu ilə şəhər mədəniyyətinin bütünləşməsinə imkanlar yaradılır. İnkişafdan qalmış bölgələrdə turizm müəssisələrinin ortaya çıxması ilə, buradakı ictimai yeknəsəqlik və monotonluq aradan qalxır, müxtəlif xüsusiyyətləri və tikilişi olan evlərin sayı artır; 3) Turizm, ailə quruluşu və qadın haqları məsələsində bir sıra dəyişikliklərə də səbəb olmaqdadır. Xüsusilə, az inkişaf etmiş ölkələrdə iqtisadi və ictimai baxımdan daha əvvəl ailə içində sıxılmış olan qadın, turizm yolu ilə daha azad bir mövqeyə gələ bilməkdədir. Məsələn, islam ölkələrində qadınların otel xidmətləri departamentində çalışmağa başlamaları nəticəsində, onların ənənəvi rollarında bir dəyişiklik müşahidə edilmişdir. Qadınlar da ailənin güzəranına yardım etməyə başlamışlar. Bunun kimi, qadın turistlərin azad davranışları, qadının ikinci planda qaldığı cəmiyyətlərdə, onları haqlarını tələb etməyə istiqamətləndirməkdədir; 4) Turizm, cəmiyyət fərdlərinin əvvəllər sahib olmadığı yeni əyləncə və asudə vaxt alışqanlıqlarını yarada bilər; 5) Turizm, bölgə əhalisinin təmizlik düşüncəsinin inkişafına təkan verə bilər. Bölgə insanı daha təmiz və nizamlı bir çevrəyə sahib olmağa çalışır. Məsələn, Koreyada turizmdəki inkişafa paralel olaraq qurulan kompaniyalarda, tualetlərin təmiz saxlanılması, avtobus və qatar stansiyaları kimi sahələrdə olan tualetlərin ətrafına çiçəklər əkilməsi təşviq edilmişdir; 6) Turizm, bölgədə yeni ictimai qurumların ortaya çıxmasına təsir edir. Turizm sənayesində fəaliyyət göstərən müəssisələrin köməyi ilə bölgənin mədəni və təbii dəyərlərini qorumaq üçün bəzi könüllü dərnəklərin yaradılması mümkündür; 7) Turizm, bölgədə yeni peşə qruplarının yaranmasına təsir edə bilər. Eyni zamanda yeni peşələrin yaranması da turizmin iqtisadi təsiri baxımından tədqiq edilməkdədir; 8) Turizm, əldə edilən gəlir səbəbilə, bölgə əhalisinin öz tarix və mədəniyyət dəyərlərinə sahib çıxmaq təşəbbüslərinə təkan verir. Bölgə əhalisi, sahib olduğu dəyərləri yenidən nəzərdən keçirərək, onu yerli və əcnəbi turistlərin marağına və zövqünə təqdim edilə bilər; 9) Turizm, həm bölgə əhalisinin, həm də səyahət etmə məqsədində olan potensial turistlərin öz ana dillərindən başqa ikinci bir dili öyrənmələrinə vasitə ola bilər. Fərqli bir dilin öyrənilməsi, əlaqəni asanlaşdıra biləcəyi kimi, fərqli mədəniyyətlər haqqında məlumat alınmasına da yardımçı olacaqdır; 10) Ən nəhayət, turizm (turist göndərən

ölkələr baxımından) ailədəki münasibətlərin möhkəmləndirilməsində müsbət bir rol oynamaqdadır. Müasir dünyada iş şəraitinin gərginliyi səbəbilə dağılan və ya bir-birinə yetərincə vaxt ayıra bilməyən ailə üzvləri, məzuniyyət və istirahət müddəti boyunca bir araya gələrək ailə münasibətlərini möhkəmləndirmə şansına sahib olmaqdadırlar. Bu cəhəti ilə turizm, xüsusilə, sənayeləşmə mərhələsini tamamlamış ölkələrdəki ailə formasının yenidən qurulmasına və ailə münasibətlərinin gücləndirilməsinə təkan verməkdədir.

II fəslin ikinci yarımfəsli **"Turizmin mənfi sosial-psixoloji təsirləri"** adlanır. Burada belə qənaətə gəlinir ki, turizm yerli əhalinin həyatına müxtəlif dərəcədə, o cümlədən onların maddi və mənəvi fəaliyyətinə, dəyərlər sisteminə, ictimai davranışına, maraqlarına təsir göstərir. Səyahət zamanı turistlərin yerli xalqın mədəni və əxlaqi dəyərlərinə hörmətsiz davranmaları (dini və ənənəvi dəyərlərə, yerli geyim nümunələrinə, əyləncə formalarına və s.), yerli mədəni əsərlərə və ekologiyaya qeyri-mühafizəkar davranmaları turizmin mənfi təsirləri içərisində xüsusi narahatlıq doğurur.

Turizmin ətraf mühitə mənfi təsirlərinə gəldikdə isə, bunu deyə bilərik ki, turizm fəaliyyətləri, bütün tədbirlərə baxmayaraq ətraf mühiti məhv etməkdədir. Bunun başlıca səbəbi kütləvi turizm nəticəsində ekoloji dəyərlərin pozulmasıdır. Mənfi təsirlər adətən birbaşa əlaqə nəticəsində yaranır, lakin turizmin qeyri proporsional inkişafı nəticəsində və potensial imkanların qeyri-effektivliyi nəticəsində dəyişə bilər.

Həm turistlər, həm də yerli əhali müxtəlif mədəniyyətlərin daşıyıcıları olduqları üçün onlar arasındakı münasibətlər də özünü fərqli formalarda büruzə verir. Onlar arasında münasibət əsasən turist istirahət edəndə, yerli əhali isə işləyəndə yaranır və müvəqqəti xarakter daşıyır. Turizmin, turist qəbul edən ölkənin mədəni strukturuna müsbət təsirləri olduğu kimi, mənfi təsirləri də, təbii ki, olacaqdır. Turizm fəaliyyətlərinin turist qəbul edən ölkənin mədəniyyətinə vermiş olduğu mənfi təsirləri bu şəkildə sıralaya bilərik: Turizmin yerli əhali üzərindəki ən önəmli mənfi mədəni təsiri insanlar arasındakı münasibətlərdə dostluq, yoldaşlıq, qonaqsevərlik kimi mənəvi dəyərlərin yox olması, yerinə iqtisadi mənafeləri ön planda saxlayan dəyər düşüncəsinin formalaşmasıdır; Müxtəlif dillərdə danışan insanlar sayəsində turist qəbul edən ölkənin dil strukturuna bir çox əcnəbi sözlər girir və bu, dildə yadlaşmağa səbəb olur; Bir ölkədə turistin varlığı yerli əhalinin həyat tərzinə təsir edir. Bölgə əhalisi boş vaxtlarını keçirmək üçün turistlər kimi bar, gecə klubu, qumarxana, disko kimi əyləncə yerlərinə gedir. Beləcə, turist qəbul edən ölkə əhalisinin alkoqol istifadəsində artım olur. Qumar oynama vərdişləri qazanırlar; Turistlər getdikləri bölgələrin adət-ənənə, yaşam tərzi və mədəni dəyərlərinə zidd davranmaları nəticəsində mədəni toqquşmalarla

yanaşı cinayət törətmək səviyyəsində artım gözlənir; Turizmin inkişafı nəticəsində ev sahibi olan ölkələrin faydalana biləcəyi xidmətlərdə azalma olur; Turizm fəaliyyətlərinin sıx olduğu bölgələrdə turist qəbul edən bölgə əhalisinin sahib olduğu dəyər və inanc strukturu dəyişir. Bu hal özünü geyim və həyat tərzində də göstərir; İnsanlar məziniyyət psixologiyasına uyğun olaraq getdikləri regionlarda sahib olduqları davranışlardan kənara çıxırlar. Yerli əhali də turistlərə baxaraq onları təqlid etmək istəyirlər. Bu da istehlak vərdişlərinin artmasına səbəb olur; Turist ilə turist qəbul edən ölkə əhalisinin həyat səviyyəsindəki fərqliliklərin, ev sahibi ölkə əhalisinin turistləri qısqanmasına yol açması nəticəsində, özlərini yalnız turistlərə xidmət etməklə vəzifə daşıdıqlarından narahatıq keçirirlər.

Göründüyü kimi, turizm faktının, turist qəbul edilən ölkənin ictimai quruluşu üzərində müsbət təsirləri ola biləcəyi kimi, eyni zamanda özü ilə gətirmiş olduğu bəzi mənfi təsirləri də ola bilər. Turizmin ictimai təsirləri baxımından aparılan ən çox müzakirələr turizmin mənfi ictimai təsirləri haqqındadır. Bu sahədə aparılan araşdırmalarda turizmin fərd, ailə və ictimai quruluş üzərində bir çox mənfi təsirləri tədqiq edilmişdir.

**“Davamlı mədəni turizmin əsas istiqamətləri”** başlıqlı III fəslin ilk yarımfəsli “Davamlı mədəni turizm: təməl prinsiplər və **yeni təmayüllər”** adlanır. Burada diqqət ilk növbədə belə bir fakta yönəldilir ki, davamlılıq – turizmin qaynağını təşkil edən yerli özəlliklərin qorunub inkişaf etdirilərək cəlbediciliyinin müntəzəm surətdə təmin edilməsidir. Davamlı turizm anlayışının əhəmiyyət qazanmağa başlaması 1987-ci ildə nəşr edilən “Dünya ətraf mühit və inkişaf komissiyası”nın hesabatı ilə bağlıdır. Bu komissiyanın 1984-cü ildə çap olunmuş “Ortaq gələcəyimiz” adlı hesabatında davamlılıq anlayışından bəhs edilmkdədir. Ancaq bu iki hesabatda “davamlılıq” anlayışını iki ayrı-ayrı meyarlına diqqət yetirilir. Belə ki, ilk hesabat davamlılığı iqtisadi, ikinci hesabat isə ekoloji amillərlə bağlayır. Beləliklə, davamlılığın birdən artıq meyara söykəndiyini və yalnız bütün bu kriteriyaların gerçəkləşməsi halında davamlılıqdan bəhs edə biləcəyimizi anlamış oluruq.

Məhz belə bir kontekstdən baxıldığında davamlı turizmi belə şərh etmək olar: – Davamlı turizm, ətraf mühitə və cəmiyyətə uygun, təbiət və mədəniyyət üzərində mənfi təsirləri minimuma endirən bir faktdur. Davamlı turizm fəaliyyətləri doğru istiqamətdə aparıldığı zaman əhalinin rifahı artar, turistin istəkləri təmin olunar. Davamlı turizmin ən böyük vəzifəsi və məsuliyyəti gələcək nəsillərin ehtiyaclarından və sahib olması lazım gələn dəyərlərdən hiç bir şəkildə güzəşt edilməməsidir.

Məhz bu baxımdan, turizm faktı, ətraf mühit və davamlılıq anlayışları dört əsas məsələni diqqətdə saxlamalıdır: Turistlərin təbii mühitin istifadəsi ilə bağlı

olan dəyər kateqoriyasının anlaşılması; Bir sektor olaraq turizmdəki topluluqların mühafizəyə möhtac olduğunun dəyərləndirilməsi; Turizmin sosial və ətraf mühit fəaliyyətlərinin müəyyənləşdirilməsi; Bu təsirləri idarə edə bilmək üçün sistemlərin inkişaf etdirilməsi.

Davamlı turizmin bir sıra ümumi prinsipləri vardır ki, bunlar aşağıdakılardır: Tələbata görə deyil, yerinə görə turistik fəaliyyətlərin təşkili; Prioritetlərin yerli əhaliyə verilməsi; 12 ay turizm; Kütləvi daşıma; İctimai iştirak; Təmiz enerji istifadəsi; Fəaliyyət şəraitində dincəlmə; Gerçək həyat tərzinin yaradılması; İctimai və mədəni kimliyin qorunması; Turizm yatırımlarının elastik, inkişafa açıq və uzun müddətli olması kimi və s.

Davamlı turizmin məqsədləri aşağıdakılardan ibarətdir: – Davamlı turizm inkişafi, bölgə əhalisinin və turistlərin bugünkü ehtiyaclarını təminn edərkən gələcəyi qorumaq və dəyərini artırmaqla yanaşı getməlidir. Bu məqsədə çatmağda mədəni tamlığını saxlayan, biyoloji müxtəlifliyi artıran və canlıların yaşamasını dəstəkləyən, iqtisadi, sosial və estetik ehtiyacları ödəyən qaynaqlara rəhbərlik işinin planlaşdırılması; Ətraf mühit dəyərlərinin artırılması, insan ehtiyaclarının təminatı, bugünkü və gələcək nəsillərin rifahının artırılması və bütün insanların yaşayış standartlarının yüksəldilməsi; Turizm yolu ilə ətraf mühitə və iqtisadiyyata yardım edilməsi; İnkişafda bərabərliyi təmin edilməsi, sektorlar və fərdlər arasında bərabər inkişaf yaradılması, mədəni və fiziki mühitə, təbiətə qayğı ilə yanaşılması.

Mütəxəssislərin gəldikləri əsas qənaətləri ümumiləşdirsək, davamlı mədəni turizm üçün təməl prinsipləri aşağıdakı şəkildə təqdim edə bilərik: Yerli rəhbərlər öz şəhərlərinin mədəni və tarixi mirasını turizmin getirirlindən üstün tutmalıdırlar; Mədəni turizmin həyata keçirilməsində fərqliliklərə, yerli mədəniyyətlərə və inanclara hörmətlə yanaşılmalıdır; Mədəni irs nümunələri qorunmalı və mədəni turizm mühafizəni dəstəkləməlidir; Şəhərli mədəni turizmi mənimsəməli, turizm yerli əhalinin ehtiyaclarına həssas və məsuliyyətli yaxınlaşmalı, ziyarətçilər bu mövzuda maarifləndirilməlidirlər; Mədəni turizm davamlı inkişaf hədəflərini dəstəkləməlidir; Bələdiyyələr, yerli qurumlar və iş yerləri kimi yerli pay sahibləri mədəni turizmin inkişaf prosesində yer almalıdırlar; Mədəni turizm yerli əhalinin hamsına bərabər surətdə faydalı olmalıdır; Mədəni turizm ziyarətçilərin ehtiyaclarına cavab verməli, özünəməxsus bir təcrübə yaşatmaq məqsədi daşımalıdır; Karbon qazının səviyyəsini aşağı salacaq tədbirlər görülməli, su və enerji kimi qıt qaynaqlar qorunmalı, zibilləmənin dərəcəsi aşağı düşürülməlidir; Mədəni turizm davamlı bir kommunikasiya sistemi əsasında qurulmalıdır; Turizmin istər qazancları, istərsə də əhaliyə başa gəln maya dəyərləri istehsalçılara və istehlakçılara çatdırılmalıdır; Mədəni turizmin rəhbərliyi və inkişafi dəyişikliyə açıq olmalıdır.

Davamlı mədəni turizm – ziyarət edilən yerdəki insanlarla və onların yaşayan mədəniyyətləri ilə əlaqə yaratmaq imkanı verən və ya incəsənət, mədəni irs və ya bir yerin xüsusi xarakteri ilə bağlı öyrənmə imkanı verən, beləliklə, bu mövzuda orijinal bir təcrübə verən səyahət növüdür. Mədəni turizm səyahətçiləri mədəni irsi və mədəni hadisələri görməklə kifayətlənməyib, yerli mədəniyyətlərə qarışmaq və qatılmaq istəməkdədirlər.

II fəslin ikinci yarımfəsli **“Mədəni turizmdə ətraf mühitin, təbii irsin və tarixi-mədəni sərvətlərin qorunması problemləri”** adlanır. Turizm fəaliyyətləri, bütün tədbirlərə baxmayaraq ətraf mühiti məhv etməkdədir. Bunun başlıca səbəbi kütləvi turizm nəticəsində ekoloji dəyərlərin pozulmasıdır. Bu pozulma insanların danışıqları, fotoaparatların işıqları, ifrat yük götürmə kimi bir çox mənfi səbəbdən qaynaqlanmaqda və nəticədə də bu kilsələrin divarlarındakı rəsmlər tədricən xüsusiyyətini itirməkdədir.

Turizmin ətraf mühit üzərindəki mənfi təsirləri bu şəkildə sıralana bilər: 1. Turistik yerlər təbii mühiti məhv etməkdə və fiziki tarazlığı pozmaqdadır. 2. Turizm təbii mənzərənin bayağılaşmasına səbəb olur. Talan edilən sahillərdəki gecələmə təsisatları, üzmə hovuzları, yaxta limanlarının yaratdığı mənzərə kimi. Dağ yolları, kanat yolu və s. təsisatlar ətraf mühitin həm təbii görünüşünü dəyişdirir, həm də tarixi və arxeoloji dəyərlərlə uyğunsuzluq yaradır. 3. Turizm tarixi və təbiət sahələrinin maddi olaraq çirklənməsinə səbəb olur (Çöldə-bayırda yeyilən yemək artıqları kimi). 4. Turistik mal və xidmətlərin istehsal və istehlakından artıq qalan zərərli artıqlar, təbiəti çirkləndirdiyi qədər, insanların sağlamlığı üçün də təhlükə yaratmaqdadır. Təməli yetərli olmayan turistik yerlərdə insan axını və sıxlığı nəticəsində yaranan zibilliklərin toplanmaması, kanalizasiya sularının dənizə axıdılması kimi. Turizmin plansız olaraq inkişafının bir nəticəsi olaraq ortaya çıxan əhali artımı və ifrat tikililər, sahillərdən tutmuş bütün su mənbələrini çirkləndirir. Müxtəlif səbəblərlə çirklənmiş olan içməli və istifadə sularının xidmət sahələrində istifadəsi ilə yoluxucu xəstəliklər ortaya çıxır. Su mənbələrinin çirklənməsindən başqa məhsuldar kənd təsərrüfatı əraziləri və bölgənin “flora” (bitki örtüyü) və “fauna” (heyvanlar aləmi) sferası da zərər görməkdədir. Meşələrin qırılması, meşəlik sahələrində ovlama, inşaat və kommunikasiya fəaliyyətləri bitki örtüyünə və yabanı heyvan nəslinə zərər verir. Sahillərdəki dəniz nəqliyyatı sığınacaqları, gəzinti yolları dəniz heyvanları nəslinin tükənməsinə yol açır. Bəzi göl və axar su sahillərindəki qamış, avar, və s. sahələrinin yox edilməsi də oralarda olan canlılar nəslinin kəsilməsinə səbəb olur. Nəticədə isə həmin bölgələr turizm üçün cəlbediciliyini itirir. 5. Turizmin ətraf mühit üzərindəki digər bir mənfi təsiri də ətraf mühiti narahat edən səs-küy və gurultudur. 6. Səs-küy, təyyarələrin enib-

qalxması, nəqliyyat vasitələrinin çıxardığı səslər və inşaat çalışmaları buna nümunə ola bilər. Bundan başqa, bölgəyə olan turizm axını nəticəsində, getdikcə artan nəqliyyat vasitələrindən çıxan zərərli qazlar ekoloji tarazlığın pozulmasına səbəb olur. 7. Turizm yalnız sahil kənarlarında deyil, turist axınının olduğu bütün yerlərdə nizamsız şəhərləşməyə səbəb olur.

Beynəlxalq səviyyədə yaxşı qorunmuş ətraf mühit, bütün ölkələrin ən böyük turizm qaynağını əmələ gətirməkdədir. Ancaq bunun qorunması ilə bağlı tədbirlərin gecikdirilməsi (və ya yetərincə olmaması), qorunma ilə bağlı lazımi tələbkarlıq və prinsipiallığın olmaması, bu gün turist cəlb edən ölkələrdə ətraf mühitin çirklənməsinə səbəb olur.

Birləşmiş Millətlər Təşkilatının Davamlı İnkişaf Komissiyası 2002-ci ili Beynəlxalq Eko Turizm ili elan etmiş və bu mövzu ilə bağlı olaraq Dünya Turizm Təşkilatı qarşısında vəzifələr qoymuşdur. Yenə 1998-ci ildə Birləşmiş Millətlər Təşkilatının qəbul etdiyi bir qərara görə 2002-ci il Beynəlxalq Dağlar ili elan edilmişdir.

Turizm sektorunda mədəniyyət amillərinin ciddi nəzarətə götürülməsinin arxasında bəşəriyyətin tarixi-mədəni irsinə, təbiətin zənginliklərinə olan qayğı durmaqdadır. Belə bir tendensiyanın getdikcə vüsət alması nəinki turizmin perspektivlərinə, ümumilikdə dünyanın gələcəyinə nikbin baxmağa əsas verir.

Dissertasiyanın IV fəsli **"Azərbaycanda mədəni turizmin inkişaf amilləri (Beynəlxalq təcrübə kontekstində)"** adlanır. Bu fəslin **"Mədəni turizm sahəsində beynəlxalq təcrübənin tətbiqi məsələləri"** başlıqlı birinci yarımfəslində göstərilir ki, dünyada bir yandan yaşlıların sayı artmaqda, digər yandan isə gənclərin daha erkən yaşlarda səyahət etməyə başlamalari müşahidə edilir. İqtisadi cəhətdən iş vaxtlarının qısalması və Avropada işsizliyin artmasına bağlı olaraq aşağı gəlir qruplarının turizm tələblərində azalmalar müşahidə edilməkdədir. Texnoloji baxımdan bütün dünyada kommunikasiya-informasiya imkanları sürətlə artmaqda, turizm sektorunda istifadə olunan transfer vasitələri çox dəyişməkdədir. Kompütür texnologiyaları sahəsindəki inkişaf turizm sifarişləri ilə bağlı sistemləri getdikcə fərdiləşdirməkdədir. Bütün bunlarla ayaqlaşmaq tur operatorları üçün getdikcə daha çox çətinləşir. Bundan bir neçə il əvvələ qədər Avropada çox sayda kiçik və orta böyüklükdə xidmət qurumlarının yer tutduğu turizm bazarı vardı. Bu gün Avropada, İngiltərədən başlayıb, Almaniyaya və Avstriyaya qədər davam edən çox sayda kiçik turizm qurumları yerinə, az sayda turizm nəhənglərinin yer aldığı bir proses yaşanmaqdadır. Bu proseslər Avropa Birliyinə daxil olan ölkələrin xeyrinə inkişaf etməkdədir. Turizmin inkişafında müşahidə edilən bu dinamika, bu sahənin getdikcə

daha fərqli istiqamətlər ala biləcəyindən xəbər verir. Bu inkişaf dinamikasını bəşəriyyətin ümumi mənafelərinə xidmət edəcək məqsədlərə yönəltmək üçün isə ən mühüm təsiredici qüvvə elm, təhsil və mədəniyyətdir.

Hazırda Azərbaycan turizmi yüksələn xətt üzrə inkişaf etməkdədir. Beynəlxalq əməkdaşlıq sahəsində də fəaliyyətləri qənaətbəxş hesab etmək olar. Azərbaycan YUNESKO-nun nəzdindəki Ümumdünya İrs Mərkəzi ilə sıx əməkdaşlıq edir. Azərbaycan turizmində mədəni irsin qorunub saxlanılması sahəsində bir çox ölkələrin iş təcrübəsi öyrənilir. Beynəlxalq təşkilatlarla əməkdaşlıq əlaqələri qurulmuşdur. Tarix və mədəniyyət abidələrinin mühafizəsi və bərpası sahəsində çalışan Azərbaycan mütəxəssisləri ardıcıl olaraq, YUNESKO, İKOMOS, İKROM və digər beynəlxalq təşkilatların keçirdiyi konfrans və sessiyalarda iştirak edirlər.

Azərbaycan Respublikasında turizmin inkişafı sahəsində mövcud problemləri aradan qaldırmaq üçün bu sahədə inkişaf etmiş ölkələrin əldə etdiyi müsbət təcrübənin və turizm sahəsində yeridilən siyasətin müxtəlif variantlarının öyrənilməsi olduqca vacibdir. Azərbaycanın spesifik xüsusiyyətlərinə və inkişaf istiqamətlərinə uyğun gələn beynəlxalq təcrübənin tətbiqi mövcud problemlərin aradan qaldırılmasına yaxından kömək göstərə bilər. Beynəlxalq təcrübə sübut edir ki, Azərbaycanda da dövlət vətəndaşlara sosial turizmin xidmətlərindən istifadə etmək üçün ezamiyyət çekləri verə bilər ki, bu çeklərdən istifadəçilər tur-məhsulun istehlakında istifadə edə bilərlər. Belə çekləri vətəndaşlara məsələn, Fransada Fransa Milli Assosiasiyası, İsveçdə İsveç Səyahət Kassası verir. Azərbaycanda turizm sənayesinin qanunvericilik bazasının təkmilləşdirilməsinə, bu zaman qabaqcıl turizm ölkələrinin, o cümlədən qardaş Türkiyənin təcrübəsindən faydalanmağa ciddi ehtiyac vardır. Habelə, Azərbaycan Respublikasının "Turizm haqqında" Qanununa "çətin vəziyyətə düşmüş turistə hüquqi və təşkilati yardım almaq imkanının yaradılması" və "turizm xidmətlərinin keyfiyyətinin və təhlükəsizliyin yüksəldilməsi" maddələri əlavə edilməli, turizm agentlikləri birliyi haqqında qanun qəbul edilməli, ekoturizm fəaliyyətini tənzimləyən normativ sənədlər və digər məsələlər üzrə qanunvericilik bazası və hüquqi aktlar hazırlanmalıdır. Daxili turizmin inkişafının dövlət strategiyası, turizmin inkişafı üçün məqsədyönlü büdcə fondu yaradılmalı, turizm məqsədilə istifadə edilən təbii və mədəni resursların qorunması, maliyyənin cəlb edilməsi üçün tədbirlər görülməlidir. Bundan başqa, turistlərin ölkə ərazisində maneəsiz hərəkəti təmin edilməlidir.

Dissertasiyanın sonuncu yarımfəsli **"Mədəniyyət və turizm müəssisələrinin səmərəli əməkdaşlığı problemi: imkanlar və perspektivlər"** adlanır. Burada qeyd edilir ki, ölkəmizin müxtəlif bölgələrini əhatə edən turizm və

mədəniyyət müəssisələri şəbəkəsinin, başqa sözlə, rayon Mədəniyyət və Turizm şöbələrinin fəaliyyəti həm keyfiyyət və həm də səmərəlilik baxımından fərqlidir. Xüsusilə də, iri sənaye şəhərlərindən fərqli olaraq ucqar rayonlarda yerləşən mədəniyyət müəssisələrinin fəaliyyəti heç də həmişə qənaətbəxş olmur. Ölkədə gedən sürətli sosial-iqtisadi inkişaf fonunda onların bir çoxlarının fəaliyyətində hələ də müəyyən çatışmazlıqlar vardır. Rayon mərkəzlərindən kənarda yerləşən kənd və qəsəbələrdəki müəssisələrdə əhalinin maariflənməsi, onların mədəni səviyyələrinin və bədii-estetik zövqlərinin yüksəldilməsi, asudə vaxtlarının səmərəli təşkili istiqamətində yaradıcı münasibət və təşəbbüskarlıq fəaliyyətləri hiss edilmir. Məhz bu istiqamətdə fəallığı artırmaq və yerlərdə mədəniyyət siyasətinin mahiyyətinin daha geniş formatda təbliği məqsədilə respublikanın müvafiq elm və təhsil müəssisələrinin mütəxəssislərinin bu çatışmazlıqların aradan qaldırılması prosesinə cəlb edilmələrinə ehtiyac vardır. Təbii ki, bu sahədəki nöqsanlarımızın başlıca səbəblərindən biri də yerlərdəki passivlikdir. Bizcə, mədəniyyətimizin təbliğində yerlərdən gələn təşəbbüslər, mədəniyyət siyasəti sahəsində uğurlu nəticələr əldə edilməsinin amillərindən biridir. Həm də mədəniyyət siyasəti ilə bağlı verilən sərəncam və qərarların həyata keçirilməsində yerlərdəki mütəxəssislərin fəaliyyətindən çox şey asılıdır. Çünki yerli turizm və mədəniyyət müəssisələrinin rəhbərləri və işçiləri bu sahənin problemləri ilə bilavasitə üz-üzə qalan mütəxəssislərdir. Bu baxımdan yerlərdə həyata keçirilən kiçik həcmli, eyni zamanda operativ xarakterli layihələr başlanğıc üçün ilkin stimul ola bilər.

Müasir dövrdə mədəniyyət və turizm müəssisələrinin qarşılıqlı əməkdaşlıq halında idarə olunması üçün zəruri olan elmi təsəvvürün işlənib hazırlanması, ancaq gündəlik məsələlərin həllinə yönəldilən və mədəniyyətin ayrı-ayrı sahələrini əhatə edən tətbiqi tədqiqatlar sahəsi ilə məhdudlaşdırılmır. Həmin tədqiqatlar çox geniş bir elmi bilikləri özündə ehtiva edən kulturoloji profilli sahələrlə həyata keçirilir. Eyni zamanda mədəniyyət haqqında elm – kulturologiya sürətlə inkişaf edən elmi sahələrə aiddir. Bu da belə bir zərurətdən doğmuşdur ki, məhz ümumi kulturoloji konsepsiya mədəniyyət və turizm sahələrində bütün tətbiqi tədqiqatların nəzəri və metodoloji bazasını təşkil etməlidir. Kulturoloji konsepsiyaya ehtiyac nəinki mədəni praktikada və ona bilavasitə xidmət edən tətbiqi elmlərdə, həm də bütün ictimai elmlər sistemində özünü göstərir.

Mədəniyyət və turizm müəssisələrinin səmərəli əməkdaşlığı üçün turizm sənayesinə diqqətin artırılması, onun inkişaf strategiyasının islənib hazırlanması, qanunverici bazasının yaradılması, bu sahə üçün mutəxəssislərin hazırlanması qarşıda duran problemlərdir. Mədəniyyət ocaqları və mədəniyyət abidələrinə tamaşa və gəzintiyə gələnlərin hesabına

əldə edilmiş maliyyə vəsaitinin hissə-hissə bu irsin saxlanılması, mühafizəsi və yaxşılaşması istiqamətində istifadə etmək lazımdır.

Turizmin təşkili, əslində hər bir fərdin asudə vaxtının mədəni təşkili forması kimi nəzərə çarpır. İnsanlar yalnız özlərinin asudə vaxtlarında turist səfərlərinə çıxır, bu və ya digər formada istirahət və əyləncənin əsas iştirakçıları olurlar. Elə bu səbəbdən də mədəni turizmə daha çox asudə vaxt şəraitində social-mədəni fəaliyyətin bir növü kimi baxılır ki, onun da tərbiyəvi əhəmiyyəti birbaşa olaraq bir sıra məsələlərin həllindən asılıdır.

Dərketmə turizmində mədəni-maarifləndirmə prosesi həm də insanlar arasında ünsiyyət yaratmaq vasitəsidir. Bu ünsiyyət isə rəsmiyyətdən uzaq olan əyləncəli əlaqələr zəminində baş verir və bu proses insanlar arasında mədəni əlaqələri dostluq, tanışlıq mərhələsinə çatdırır. Təbii ki, insani əlaqələrin genişlənməsi bir növ mədəni ünsiyyətin özünü qloballaşdırır, ayrı-ayrı fərdlər arasında dünyəvi münasibətlər formalaşdırır.

Turizm fəaliyyətlərində mədəniyyət müəssisələrinin iştirakı çox səmərəli nəticələr verir və turistlər üçün mədəni-kütləvi işin təşkili prosesində iştirakçıların arzu və istəkləri də nəzərə alınır. Bu mənada, mədəni fəaliyyətin təşkili işi turizm təşkilatçılarının əsas iş sahəsidir.

Dissertasiyanın **“Nəticə”** hissəsində tədqiqatın əsas müddəaları ümumiləşdirilir, aparılmış araşdırmalara yekun vurulur və tədqiqat nəticəsində əldə edilmiş qənaətlərə istinadən təklif və tövsiyələr verilir.

## Dissertasiyanın əsas məzmunu iddiaçının aşağıdakı əsərlərində öz əksini tapmışdır:


1. Milli bayram və mərasimlərimiz sosial-mədəni hadisə kimi. “Mədəniyyət dünyası”, XI buraxılış, Bakı, ADMİU, 2006, s. 89-94.
2. Muzey-turizm əlaqələrinin müasir mədəni gerçəklikdə mövqeyi (R.Ağayevlə müştərək). “Musiqi dünyası”, 2009, № 3-4 (41), s. 162-165.
3. Ölkə iqtisadiyyatında turizmin rolu və onun yüksəldilməsi istiqamətləri. Doktorant və gənc tədqiqatçıların XV Respublika elmi konfransının materialları. Bakı, Azərbaycan Respublikası Təhsil Nazirliyi, Bakı, 2011, s.442-444.
4. Turizmin inkişafında mədəni və iqtisadi amillərin qarşılıqlı təsiri. “Mədəniyyət dünyası”, XXIII buraxılış, Bakı, ADMİU, 2012, s. 47-52.
5. Azərbaycanda mədəni turizminb perspektivlərinə dair. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Elmi əsərlərii. Bakı, ADMİU, 2012, 32-38.
6. Mədəni turizmdə maarifləndirmə problemləri. “Mədəni həyat”, 2012, № 11 (261), s. 22-24.

7. Azərbaycan turizmi beynəlxalq mədəni əlaqələr kontekstində. Mədəniyyət: problemlər və perspektivlər. Doktorant və gənc tədqiqatçıların VI Beynəlxalq elmi konfransının materialları. Bakı, ADMİU, 2012, s. 19-20.
8. Turizmin inkişafina təsir edən kulturoloji amillər. "Qloballaşma şəraitində kulturoloji innovasiyalar və sosial-mədəni inkişaf" Beynəlxalq konfransının materialları. 2012, 21-22 dekabr. Bakı, ADMİU, 2012, 376-380.
9. Milli dəyərlərin təbliğində mədəni turizmin maarifçilik mahiyyəti. Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri. ADMİU-nun 90 illiyinə həsr olunmuş XI Beynəlxalq elmi-praktiki konfransın materialları. Bakı, ADMİU, 2012, s.45-47.
10. Turizmin idarəedilməsində dövlətin tənzimləyici rolu. Mədəniyyətlərarası dialoqda ənənəvi incəsənətin rolu. ADMİU-nun 90 illiyinə həsr olunmuş XI Beynəlxalq elmi konfransın materialları. Bakı, ADMİU, 2012, 125-127.
11. Azərbaycan regionlarının sosial-iqtisadi inkişafinda turizmin rolu. Doktorant və gənc tədqiqatçıların XVI Respublika elmi konfransının materialları. Bakı, Azərbaycan Respublikası Təhsil Nazirliyi, 2012, s. 407-409.
12. Turizmin ətraf mühitə müsbət və mənfi təsirləri. "Mədəniyyət dünyası", XXV buraxılış, Bakı, ADMİU, 2013, s. 42-47.
13. Azərbaycanda turizmin inkişafi: problemlər və perspektivlər. "Mədəni həyat", 2013, № 1-2 (263-264), s. 68-71.
14. Ekoturizm: təbii və mədəni sərvətlərin qorunaraq turizmə açılması. "Müasir mədəniyyətşünaslıq" (elmi, metodiki, publisistik jurnal). Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, Mədəniyyətşünaslıq üzrə elmi-metodiki mərkəz. № 2 (14) 2013, Bakı, s. 18-24.
15. Феномен туризма в контексте воздействия на окружающую среду. «Язык, культура, этикет в современном полиэтническом пространстве». Материалы III Международной научной конференции. Кабардино-Балкарский государственный университет. Нальчик, 2013, с.186-189.
16. Взаимные общественные воздействия в туризме. «Поиск» международный научный журнал-приложение республики Казахстан. № 4 (1) 2013, с.42- 47.
17. Перспективы развития культурного туризма в Азербайджане на современном этапе. «ВЕСТНИК» Московского Государственного Университета Культуры и Искусств, № 6, 2013, с. 126-132.
18. Turizmin müsbət və mənfi ictimai təsirləri. "Multikulturalizm prosesləri qloballaşma şəraitində" Beynəlxalq elmi-nəzəri konfransın materialları. Bakı, ADMİU, 2014, s.108-115.

**Сиявуш Эльман оглу Магишев**

# ПРОСВЕТИТЕЛЬСКОЕ ЗНАЧЕНИЕ КУЛЬТУРНОГО ТУРИЗМА И ФАКТОРЫ ЕГО РАЗВИТИЯ

## РЕЗЮМЕ

Диссертация состоит из введения, четырех глав, восьми подглав, заключения и списка использованной литературы.

В введении обосновывается актуальность темы, раскрывается научная новизна, цели и задачи, методологическая основа, теоретико-практическое значение исследования.

В I главе диссертации под названием «Культурологическое значение взаимодействия в сфере культуры и туризма» приводится культурологическое толкование терминологических понятий, относящихся к культурному туризму. Анализируются просветительские аспекты культурного (познавательного) туризма.

Во II главе диссертации под заголовком «Общественно-культурное и социально-психологическое воздействие туризма» изучается позитивное социальное и культурное влияние туризма. Изучается также негативное социально-психологическое воздействие туризма и анализируется существующая практика по устранению подобных явлений.

В III главе диссертации под названием «Основные направления устойчивого культурного туризма» раскрывается значение устойчивого культурного туризма. Раскрываются также основополагающие принципы устойчивого культурного туризма и выявляются основные свойства новых тенденций в этой сфере. Анализируются проблемы охраны окружающей среды, историко-культурного наследия и природных ресурсов в сфере туризма.

IV глава диссертации называется «Факторы развития культурного туризма в Азербайджане (в контексте международного опыта)». В этой главе изучается международный опыт в области культурного туризма, а также рассматриваются проблемы применения этого опыта в области азербайджанского туризма. В этой, заключительной главе диссертации уделяется внимание эффективному взаимному сотрудничеству учреждений культуры и туризма. Выявляются имеющиеся возможности в связи с данной проблемой и основываются перспективы такого сотрудничества с научной точки зрения.

В заключении исследования обобщаются основные положения исследования и подводятся итоги проведенным изысканиям. В соответствии с полученными выводами исследования даются предложения и рекомендации.

## Seyavush E. Mahishov

## EDUCATIONAL VALUE OF CULTURAL TOURISM AND FACTORS OF ITS DEVELOPMENT

## SUMMARY

The thesis consists of the introduction, four heads, eight subchapters, the conclusion and the list of the used literature.

Relevance of the subject, scientific novelty, the purposes and tasks, the methodological basis, theoretical-practical value of research reveals are guided in introduction.

Culturological interpretation of the terminological concepts relating to cultural tourism is given in the chapter I of the thesis under the name "Culturological Value of Interaction in the Culture and Tourism Sphere". Educational aspects of cultural (informative) tourism are analyzed.

Positive social and cultural influence of tourism is studied in the chapter II of the thesis under the heading "Public and Cultural and Social and Psychological Impact of Tourism". Negative social and psychological impact of tourism is also studied. Existing practice on elimination of the similar phenomena is analyzed.

Value of steady cultural tourism reveals in the chapter III of the thesis under the name "Main Directions of Steady Cultural Tourism". Fundamental principles of steady cultural tourism are also revealed and the main properties of new tendencies in this sphere come to light. Problems of environmental protection, historical and cultural heritage and natural resources in the tourism sphere are analyzed.

The chapter IV of the thesis is called "Factors of development of cultural tourism in Azerbaijan (in a context of the international experience)". In this chapter the international experience in area of cultural tourism is studied and problems of application of this experience in area of the Azerbaijani tourism are considered. The attention to effective mutual cooperation of cultural institutions and tourism is paid in final chapter of the thesis. Available opportunities in connection with this problem come to light and prospects of such cooperation from the scientific point of view are based.

In the conclusion of research basic provisions of research are generalized and the results are summed up of the carried-out researches. According to the received conclusions of research offers and recommendations are given.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ КУЛЬТУРЫ И ИСКУССТВ**

*На правах рукописи*

**СИЯВУШ ЭЛЬМАН оглу МАГИШЕВ**

# ПРОСВЕТИТЕЛЬСКОЕ ЗНАЧЕНИЕ КУЛЬТУРНОГО ТУРИЗМА И ФАКТОРЫ ЕГО РАЗВИТИЯ

**6219.01 – Культурология и её общие вопросы**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание учёной степени доктора философии по искусствоведению**

**ВАКУ – 2014**